AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NİZAMİ GƏNCƏVİ ADINA
MİLLİ AZƏRBAYCAN ƏDƏBİYYATI MUZEYİ

RİSALƏ

Araşdırmalar toplusu

13

Bakı – "Elm və təhsil" – 2017

Azərbaycan Milli Elmlər Akademiyası
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
Elmi Şurasının 16 mart 2017-ci il tarixli (protokol № 3)
qərarı ilə çap olunur

Redaktor: **Rafael Hüseynov,**
akademik

Redaksiya heyəti:
Kamil Allahyarov, filologiya elmləri doktoru
Xatirə Bəşirli, filologiya elmləri doktoru
Şəfəq Əlibəyli, filologiya elmləri doktoru
Aida Qasımova, filologiya elmləri doktoru

Risalə. Araşdırmalar toplusu. 13-cü kitab
Bakı, "Elm və təhsil" nəşriyyatı, 2017, 216 s.

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin beş topludan ibarət elmi-tədqiqat "Xəmsə"sinə ("Şərq" – Tərcümə toplusu, "Məclis" – Mərasimlər toplusu, "Xəzinə" – Kataloqlar toplusu, "Qaynaq" – Mənbələr toplusu) daxil olan "Risalə" – Araşdırmalar toplusunun bu sayı akademik Rafael Hüseynovun rəhbəri olduğu gənc alimlərin məqalələrindən tərtib edilmişdir. Məqalə müəllifləri arasında elmlər doktorları, fəlsəfə doktorları da var, dissertasiya müdafiəsinə hazırlaşan cavan tədqiqatçılar da. Akademik Rafael Hüseynovun elmi məktəbinin təmsilçiləri olan bu araşdırıcılar Azərbaycan klassik və müasir ədəbiyyatının bir sıra aktual və az öyrənilmiş problemlərinə yeni görüş bucağından yanaşırlar.

© AMEA Nizami Gəncəvi adına
Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
© 2017

İlahə MƏMMƏDOVA

MEREDİT OUENSİN MƏHSƏTİ GƏNCƏVİNİN HƏYATINDAN BƏHS EDƏN ƏLYAZMA HAQQINDA ARAŞDIRMASI

Açar sözlər: Məhsəti Gəncəvi, Əmir Əhməd, "Məhsəti və Əmir Əhməd" dastanı, Meredit Ouens

Key words: Mahsati Ganjavi, Amir Ahmad, novel "Mahsati and Amir Ahmad", Meredith Owens

Ключевые слова: Мехсети Гянджеви, Амир Ахмед, романа «Мехсети и Амир Ахмед», Мередитом Оуенс

Məhsəti Gəncəvinin həyat və yaradıcılığından bəhs edən, dövrümüzə qədər gəlib çıxan "Məhsəti və Əmir Əhməd" dastanının şairənin irsinin və rübailərinin araşdırılmasında əhəmiyyəti və rolu danılmazdır. "Məhsəti və Əmir Əhməd" dastanının 4 nüsxəsi mövcuddur [3, 616]. "Məhsəti və Əmir Əhməd" dastanının əldə olan nüsxələri XV-XVI yüzillərin məhsuludur [1, 261]. Birinci nüsxə 1939-cu ildə aşkar olunmuş İstanbul əlyazmasıdır [3, 617]. Digər 2 əlyazma Bakıda Azərbaycan Əlyazmalar İnstitutunda qorunub saxlanılır [1, 259]. Üçüncü əlyazma isə 1969-cu ildə Meredit Ouens tərəfindən aşkarlanmış və araşdırılmışdır. Or 8755 saylı Britaniya kitabxanasında saxlanılan həmin əlyazmaya nəsr hissəsi və 475 rübai daxil edilmişdir [3, 617]. Meredit Ouens tərəfindən yazılan həmin məqalə "A rare illustrated persian manuscript" ("Nadir illüstrasiyalı fars əlyazması") adlanır. Məqalə ilk dəfə 1969-cu ildə professor Oktay Aslanapa və professor Rudolf Naumannın redaktoru olduğu "Forschungen Zur Kunst Asiens: In Memorium Kurt Erdmann" jurnalında (səh. 172-181) çap olunmuşdur (Məqaləni tapmaqda göstərdiyi köməyə görə İstanbul Universiteti kitabxanasının əməkdaşı olan Kübra Karamana təşəkkürlərimi bildirirəm). Professor, türkoloq, farsşünas Meredit Ouens (Glyn Munro Meredith Owens) Britaniya muzeyində biblioqraf kimi fəaliyyət göstərir, karyerasının sonrakı illərində Toronto Universitetində İslam tədqiqatları kafedrasında işləməyə başlayır [2]. Meredit Ouens Britaniya muzeyində toplanan fars və türk əlyazmalar toplusunu araşdırmışdır. Firdovsinin "Şahnamə" və Nizami Gəncəvinin "Xəmsə" əsərlərindən götürülmüş əlyazmalara dair kitabları da var. Bu əlyazmalar içərisində Əmir Əhməd və şairə Məhsəti Gəncəvi haqqında əlyazmanı xüsusilə qiymətləndirmiş [4, 172], həmin əlyazmanın bir neçə surətinin olduğunu qeyd etmişdir. Əlyazma 1917-ci ildə Britaniya muzeyinə Darea Barones Zuxe tərəfindən verilmişdir. Bundan əvvəl əlyazmanın uzun müddət Türkiyədə olduğu güman edilir. Belə ki, müəllif əlyazmadakı türk mənşəli şeirləri, ilk folioda olan izahları və əvvəlki sahiblərinin adlarını təhlil edərək bu nəticəyə gəlmişdir. Britaniya muzeyində qorunub saxlanılan Or. 8755 nömrəli bu əlyazma 111 foliodan (folio–əlyazmalarda və qədimi kitablarda səhifə üçün işlədilən termin) ibarətdir və 867/1462-1463-cü ildə nəstəliq xətti ilə köçürülmüşdür, lakin kim tərəfindən yazıldığı qeyd edilməmişdir. Ölçüsü 17.7×12 sm-dir və üzlüklərin iç səhifələrinə möhürlənmiş orijinal dəri cild tikilmişdir [4, 172]. Nəsrlə yazılmış "Əmir Əhməd və Məhsəti" dastanından əlavə 2 digər dastan da Əlinin qəhrəmanlığına aid qısa şeirdən ibarət olan "Mənqəbətnamə" və ya "Qisseyi Div-Şir" [3b-16a]

və İbrahim və İsmayıldan bəhs edən, nəzmlə yazılmış "Qisseyi- İsmayıl" [16b-22a] da daxildir.

Bu kiçik əlyazmanın dəyəri 18 türk mənşəli miniatürlə artmışdır. Lakin Ouens həmin miniatürlərin yüksək bədii standartlarının olmadığını da qeyd etmişdir. Frits Meyerin 1963-cü ildə nəşr edilmiş "Gözəl Məhsəti" monoqrafiyasında verilmiş məlumatların əlyazmanın təsvir və şərh olunmasında mühüm rolu olduğunu da vurğulamışdır [4, 173].

Xocənd şəhərindən olan müftinin (fəqihin) gözəl və istedadlı Məhsəti adlı qızı var idi. Məhsəti yaxşı təhsil almış və xüsusilə bədahətən söylənilən nəzmdə püxtələşmişdi. Lakin şəhər sakinləri onun musiqi istedadını təqdir etmirdilər. Bu barədə fəqihə hətta şikayət etmişdilər. Lakin fəqih şəhər əhlinə bildirir ki, onun bürcünə görə, o, Xərabatda yaşayacaq və musiqi oxumasının ona faydası dəyəcək. Məhsətinin yeddi yaşı olanda atası vəfat edir. O, Xocəndi tərk edərək anası ilə birgə Gəncəyə gəlir və Xərabat küçəsində qalır. O, gözəlliyi, fərasəti və istedadı ilə şöhrət qazanır. Şöhrəti uzaqlara yayıldıqca tacirlər və əmirzadələr Məhsətini görüb səsini eşitmək üçün çoxlu pullar xərcləyərək Gəncəyə gəlirlər. Gəncə şahı da Məhsətiyə aşiq olur və Məhsəti şahın şərab məclisinə gəlir. (Burada müəllif Gəncə şahının 1117-1131-ci illərdə hakimiyyətdə olan Səlcuq Mahmud ibn Məhəmməd ibn Məlikşah olduğunu güman edir). Bu miniatür f. 2b-3a – "Məhsəti Gəncə şahı ilə içki içərkən" adlanır. Bir gün Gəncə şahı deyir ki, kim məclisə geciksə, o, üç buynuz şərab içməlidir. Məhsəti həmin gün məclisə gecikir və şah şərtə əməl olunmasını tələb edir. Məhsəti bir rübai söyləyir və şah rübaini eşidib bəyənir və qiymətli daşlarla bəzədilmiş camı Məhsətiyə bağışlayır.

Burada məhz bu hissə ilə bağlı məlumat vermək istərdim. Bildiyimiz kimi, görkəmli şərqşünas alim, akademik Rafael Hüseynov Azərbaycan Əlyazmalar İnstitutunda saxlanılan "Məhsəti və Əmir Əhməd" dastanının əlyazması barədə geniş məlumat vermişdir [1, 253]. Burada şairənin Xocənd şəhərində anadan olması barədə Rafael Hüseynov yazır: "Məhsəti və Əmir Əhməd" dastanı köhnə mənbələr içərisində yeganələrdəndir ki, şairəni "xocəndli" deyə nişan verir. Olsun ki, elə bu da XV yüzil katiblərinin əlavəsidir. Məhsətinin əldə olan bütün yadigarları içərisində bircə misrada belə Xocəndin adı çəkilmir. Əvəzində ara-sıra rübailərdə Məhsəti doğma Gəncəni anır. Əgər doğrudan da Məhsətinin Xocəndlə hər hansı bağlılığı, əlaqəsi olsaydı, şübhəsiz ki, bu şəhərin də adı onun şeirlərinə yol tapardı". Bundan başqa, R.Hüseynov şairəmizin bizə gəlib çatan 300 şeiri içərisində anılmış bütün şəhərlərin adlarını verməklə qeyd edir ki, əgər şairənin bu şəhərlə hər hansı bir bağlılığı olsaydı, bu şəhərin adını şeirlərində də vurğulayardı [1, 262]. Daha sonra kitabda yuxarıdakı hadisə ilə verilmiş rübaini də buraya əlavə etmək istərdim.

Ey şah, sənə mədhü sənalar dediyim yetər,
Bu biçarə qadının sənə dua etməsi bəsdir.
Mən öküz deyiləm, mənə buynuz yaramaz,
Əgər oldumsa da, iki buynuz kifayət edər [1, 264].

Meredit Ouens digər f. 29b – "Əmir Əhməd Məhsətini ilk dəfə görərkən" miniatürünü şərh etmiş və eyni zamanda onun rəsmini də məqaləyə əlavə etmişdir [4, 174] (Burada bir haşiyə də çıxmaq istəyirəm. Belə ki,

Britaniya muzeyində saytdan götürdüyüm həmin bu miniatürün təsvirində Məhsətinin atasının Bəlx şəhərindən olması qeyd edilir. Lakin Meredit Ouensin şərhində bu barədə məlumat yoxdur). Əmir Əhməd varlı və mömin olan Gəncə xətibinin oğlu idi. O, təkkədə yaşayır və 400-ə yaxın tələbəyə dərs deyir. Lakin o, çox narahat idi, çünki yuxusunda əlində cam tutmuş bir pəri görür və ona bir badə şərab təklif edir. Bir cümə günü Gəncə xətibi oğluna məsciddə vaizlik etməyi xahiş edir. O, çox müvəffəqiyyətlə bunun öhdəsindən gəlir və hamı onu təbrik edir. Hətta şah belə onu mükafatlandırır. Ertəsi günü o, tələbələri ilə birgə Gəncə şəhərini gəzməyə çıxır və Xərabatın yanından keçəndə ayaq saxlayır. İçəridə o, şərab içən gənclərin arasında bir gözəl qız görür və görən kimi də tanıyır ki, bu, yuxusuna girmiş həmin pəridir. Məhsəti qızılı taxtda oturaraq arfada ifa edir. O, Əmir Əhmədin gözəlliyini görür və ilk baxışdan aşiq olur. Tələbələri Əmir Əhmədi evə aparırlar. O, gecəni ürək ağrısı ilə keçirir. Ertəsi gün həkim gəlib müayinə edərək Əmir Əhmədin aşiq olduğunu bildirir. Xətib çox narahat olur. Bu arada Əmir Əhməd Xərabata yollanır. O, cürətlə daxil olur və Məhsəti onu görüb çox sevinir və ona bir badə şərab verir. Bu hadisə haqqında xəbər bütün şəhərə yayılır. Onun atası tələsik Xərabata yollanır və yolda şahla rastlaşır. Şah ovdan qayıdırdı və xətib şaha olanlar barəsində məlumat verir. Şah birbaşa Xərabata yollanır və Əmir Əhmədin ünvanına ağır sözlər işlədir. Lakin Əmir Əhməd şahın sözlərinə əhmiyyət vermir. Onun iltifatsızlığı və Xərabatı tərk etməkdən imtuna etməsi şahı qəzəbləndirir və o, Əmir Əhmədi cəzalandırır. Bu səhnə f. 39b – "Məhsəti və Əmir Əhmədi qamçı ilə şallaqlaması" miniatüründə təsvir edilmişdir.

Sevgilisinin vəziyyətini görən Məhsəti arfanı yerə ataraq sındırır. Şah bunu görüb qəzəblənir və onu da döyür. Qəzəbindən Əmir Əhməd elə qışqırır ki, şah atından yerə düşərək "Sən mənə hansı oxu vurdun?" deyir. Şah elə o andaca Əmir Əhmədin əfsanəvi oxundan ölür və onun adamları çaşqınlıq içərisində qaçmağa başlayır.

Xətib oğlunu Xərabatdan uzaqlaşdıraraq onu qaranlıq zirzəmidə 20 gün ac və susuz saxlayır. Əmir Əhmədin tələbələri ona baş çəkməyə gəlir və xətib onları zirzəminin qapısına gətirir və onlar burada mərsiyə səsi eşidirlər. Bu hadisə əlyazmada f. 43b – "Xətibin və tələbələrin Əmir Əhmədə baş çəkməsi" adı ilə təsvir edilmişdir. 40 gün keçir və hələ də Əmir Əhməd dustaq həyatı yaşayır və sevimli Məhsətiyə şeirlər yazır. Yenə atası qapıya kimi gəlir və Əmir Əhmədin məhəbbət şeirini eşidir və onu dini mövzuda başa düşür. Əmir Əhmədin artıq dəyişdiyini düşünərək qapını açır. Bundan sonra Əmir Əhməd yenə də yalnız qalmaq istəyir. Lakin bir az özünə gəldikdən sonra onun birinci işi Xərabata getmək olur. O, qəm içərisində Xərabata gəlir və görür ki, Məhsəti hələ də onu gözləyir. Bu xoş mühitdə artıq Əmir Əhməd əvvəlki vəziyyətinə qayıtmağa başlayır.

Bu arada Şah Tayfur Gəncə şahı kimi atasının yerinə keçir. O, Məhsəti və Əmir Əhməd haqqında eşitmişdir və onları sarayına dəvət edir. Burada Əmir Əhmədlə Məhsəti arasında şeir deyişməsi yaranır və onlar bədahətən rübailər söyləyirlər. Şah Məhsətinin bacarığına və bəlağətinə heyran qalır. Daha sonra Əmir Əhmədlə Məhsətini şahmat oynamasını istəyir və bildirir ki, əgər Əmir Əhməd qalib gəlsə, onda min dinar mükafat alacaq. Yox, əgər məğlub olsa, onda Məhsəti sarayda qalacaq. Əmir Əhməd həmin oyunu udur və həm pulu, həm də Məhsətini götürüb Xərabata qayıdır. Yolda müxtəlif

adamlar ondan pul istəməyə başlayır və Əmir Əhməd pulları paylamağa başlayır. Və bu əsnada bilmədən Məhsətinin gözündən vurur. Məhsəti yanlarından ötən kəndlinin atına minərək ordan uzaqlaşır. Əmir Əhməd onu izləyir və nəhayət, bədahətən deyilən şeirləri ilə sakitləşdirə bilir. Daha sonra burada Saqi Yaqub və şərabsatan şagird arasında deyilən şeirlər verilir. Əmir Əhməd əvvəlki şagirdlərindən bəzilərindən eşidir ki, xətib onu təkkəyə qaytarmaq üçün şagirdlərinə qızıl vəd edib. Tələbələri onun yanına gəlir və atası ilə danışmaq üçün Əmir Əhməd içkili vəziyyətdə onlarla atasının yanına qayıdır. O, hücrəsinə çatanda orada dindarların ibadət etdiyini görür və gülümsəyərək rübai söyləyir (f.62 b – "Əmir Əhməd içkili vəziyyətdə hücrəyə daxil olur" adlı miniatürdə təsvir edilib). Xətib oğluna çox heyrətlə baxır. Atası yenidən oğlunun əvvəlki həyatına dönməsi üçün çalışır. Hətta məhz Əmir Əhmədi görmək üçün Səmərqənddən alim də gəlmişdir. Lakin Əmir Əhməd məscidə getməkdən imtina etdiyi üçün xətib artıq oğluna həmişəlik getməsini bildirir. Bayırda xətibi məscidə aparmaq üçün bəzənmiş qatır dayanmışdır. Ondan yalnız məscidə getmək üçün istfadə edilirdi. Əmir Əhməd xahiş edir ki, qatırın yəhəri çıxarılsın və bildirir ki, o, qatıra minəcək və qərarlaşacaq ki, ona hara getmək taleyinə yazılıb. Belə ki, əgər qatır onu 12 il hər cümə günü olduğu kimi, məscidə aparsa, onda o, bir əlamət kimi qəbul edib Xərabatı tərk edəcək və dini həyatı seçəcək. Yox, əgər qatır onu Xərabata aparsa, onda o, orada da qalacaq. Həmçinin əlavə edir ki, o, qatırı satmaq istəyir və puluna da ancaq özü və yoldaşlarına şərab alacaq.

Xətib bu vəziyyətə nəzarət edəcəyinə and içir və müşahidəçilərə Əmir Əhmədin andına şahidlik etməsini tapşırır. Qatır Əmir Əhmədi Xərabata gətirir və Məhsəti pəncərədən Əmir Əhmədin yaxınlaşdığını görür (f.70a – "Qatırın Əmir Əhmədi Xərabata gətirməsi"). Burada o, yeni və xoşbəxt həyatına başlayır. Lakin xətib onun haqqında düşünməyə bilmir. O, səmimi və ürəyində Allah sevgisi olan qardaşı Pir Osmana yaxınlaşır və Pir Osman dərhal Xərabata gedib Əmir Əhmədi gətirməyi təklif edir. Pir Osman Məhsətinin yaşadığı evə valeh olur. Əmir Əhməd əmisini çox gözəl qarşılayır və deyir ki, əgər Pir Osman bir badə şərab içsə, o, atasının yanına qayıdacaq. Pir Osman dərhal razılaşır və bir badə şərab içir. Sonra bir badə də istəyir. 70 ildə hiss etmədiyi sevinc hissi qəlbini bürüyür. Deyir ki, o, illərlə axtardığını artıq tapdı. Əmir Əhməd ona daha çox şərab verir. Getdikcə artıq içkili vəziyyətə düşür. Evin yolunu unutduğu üçün onu evə çiyinlərində aparırlar (f.75b – "Pir Osman içkinin təsirindən evə yoldaşlarının çiyinlərində gedir"). Ümid edir ki, xətib bu barədə bilməyəcək. Lakin gizlətmək mümkün olmur. Xətib hiddətlənir və Pir Osmanın ayılması üçün onu bir küncə buraxmağı əmr edir. Səhər qardaşı onu danlamaq istəyəndə Pir Osman qulaq asmadan Xərabata yollanır. O, artıq əyyaş olur və bununla da çox böyük ləzzət alır.

Bundan az sonra Məhsətini saraya çağırırlar. O, xanımlardan biri ilə Şah Tayfur və ona hər zaman öz sevgisini utanmadan göstərən şahın saqisi Qarıncanı əyləndirmək üçün saraya gedir. O, bağçaya gedəndə Qarınca onu təqib edir. Şah şübhələnməyə başlayır. Şah qılıncını götürərək bağda onları axtarmağa başlayır. Hovuzun yanında onları qucaqlaşıb öpüşən vəziyyətdə yaxalayır. Məhsəti tez saraya qaçır, lakin Şah Tayfur Qarıncanı tutub başını kəsir. Daha sonra kəsilmiş başı bəzənmiş boşqaba qoyur və qulluqçuya tapşırır ki, qapıda gözləsin. O, həmin qabı örtüyünü açaraq Məhsətinin qarşısına

qoymaq niyyətində idi. Əgər Məhsəti Qarıncanın taleyinə kədərlənsə, onun da başı kəsiləcək və Qarıncanın başının yanına eyni boşqaba qoyulacaqdı. Əgər onun münasibəti laqeyd olarsa, şah onunla özü münasibət qurmaq fikrində idi. Şah Tayfur içərisindəki qəzəbi gizlədərək Məhsəti ilə birgə rübai söyləməyə başlayır. Məhsəti, öz növbəsində, onun getmək vaxtının gəldiyinə işarə edir və şərabın boş mədəyə ziyanı olduğuna da eyham vurur. Sonra şah boşqabın gətirilməsini istəyir. Məhsəti düşünür ki, orada yemək olacaq, lakin qorxulu başı görəndə onu vahimə bürüyür. Şah anlayır ki, Məhsəti hələ də ölən saqinin xatirəsinə laqeyd deyil, qulluqçularına əmr edir ki, Məhsətini öküz dərisinə büküb dama qoysunlar. Altı gün o, bu vəziyyətdə qalır, sonra şahın məsləhət-çiləri ondan Məhsətinin azad edilməsini xahiş edirlər. Şah Məhsətini azad edir və ona zərli bir xələt də verir. Sonra Məhsəti Tayfurla ova çıxır və şah özünəməxsus atlarından birini ona verir. Sonra Şah Tayfur ovu təxirə salır, həmin atı Məhsətiyə hədiyyə edir və Məhsəti Xərabata Əmir Əhmədin yanına qayıdır.

Xətib hələ də ümid edirdi ki, oğlu haqq yoluna dönəcək. O, oğlundan Şah Tayfura şikayət edir. Şah Tayfur Əmir Əhmədə qarşı tədbir tökmək istəmir. Lakin razılaşır ki, Xərabatda şərab alverinə yasaq qoyulacaq və şərab satılma hallarına rast gəlinsə, həmin adamları ölkədən qovduracaq. Beləliklə, Əmir Əhməd çox sevdiyi yerindən qovulur və ancaq Məhsəti ilə təsəlli tapır. Məhsəti ona Gəncəni tərk edib Xorasana getməyi təklif edir. Xorasanda Məhsətiyə anasının ölümündən sonra mülk qalmışdır. Əmir Əhməd çıxıb getmək istəməsə də, Məhsəti bir gecə qulluqçuları ilə birgə gizlicə qaçıb gedir. Əmir Əhməd onun getməsindən xəbər tutar-tutmaz Məhsətinin arxasınca yollanır. Dostlarından biri Məhsətinin Zəncanda olduğunu və Baba Əxi Fərəci Zəncaninin qəbrini ziyarət etdiyini bildirir. Əmir Əhməd Zəncana çatır və bazarda dolaşmağa başlayır. Təsadüfən bazarda Məhsətinin qulluqçularından biri ilə rastlaşır. Xorasandan Zəncana gələn qulluqçu Əmir Əhmədə məktub verir. Əmir Əhməd dərhal Xorasana yola düşür. Məhsəti Xorasanda ədəbi çevrəyə qoşulmuşdur. O, burada 300 şair və ədib üçün məclis təşkil edir və qeyd edir ki, əgər onun dediyi tapmacanı tapmasalar, məclisdə iştirak edə bilməyəcək. Qəflətən Əmir Əhməd peyda olur və tapmacanın cavabını deyir və məclis başlayır (f. 87a – "Məhsəti xorasanlı şairləri əyləndirərkən"). Əmir Əhməd Gəncə üçün darıxır, Məhsəti isə onu ələ salaraq saqqalından dartır. Əmir Əhməd buna çox qəzəblənir və dağılmış bir karvansaraya gedərək bir küncdə oturur. Məhsəti onu çox axtarır və nəhayət, onu xarabalıqlar arasında tapır (f.90b – "Məhsətinin Əmir Əhmədi xarabalıqlar arasında tapması"). Məhsəti ondan bağışlanmasını istəyir, həmçinin onunla qayıtmasına razı salır. Şəhərə qayıdarkən onlar yolda şəhərin gözəl oğlanları ilə, yoldan keçənlərlə şeir deyişirlər, hətta narkotik aludəsi olan birisi onlara yaxınlaşır və Əmir Əhməd onun narkotikini əlindən alır (f.95b – "Əmir Əhməd və Məhsətiyə bazarda ədəbsiz bir adamın yaxınlaşması"). Onlar rastlaşdıqları hər kəslə şeir deyişməyə başlayırlar.

Bazardan çıxarkən onlar təsadüfən xətib və onun adamları ilə rastlaşırlar. Məhsəti qaçır, lakin Əmir Əhməd atasını çox yaxşı salamlayır. O, atasından iki və ya üç günlük pul istəyir. Xətib razılaşır, lakin Əmir Əhməd atasının əmmaməsini dartır, bu, xətibi hövsələdən çıxarır və oğluna çox pis söz deyir. Özünü bir az toparlayaraq, xətib oğluna deyir ki, mən sənin 15 ilini aşağı

səviyyəli bir mühitdə korladığını deməyə gəlmişdim. Onda Əmir Əhməd soruşur: "Ata, sən 60 illik dini həyatından nə qazanmısan?" Xətib cavab verir: "Ən azından mən düyünlü problemləri həll edə və möcüzələr yarada bilirəm". Əmir Əhməd isə deyir: "Əgər sən möcüzələr yarada bilirsənsə, onda mənim etdiyim hərəkətləri də qabaqdan görə bilərsən". Xətib qışqırır: "Bu, dəli bir adamın danışığıdır və sən cəhənnəm əzabına düçar olacaqsan". Əmir Əhməd bildirir ki, artıq atası onu uzun müddətdir ki, tənqid edir və o da istəyir ki, atası özü haqqında həqiqəti anlasın. Əmir Əhməd təklif edir ki, atası indi və buradakı insanların yanında bir möcüzə yaratsın. Əgər xətibin möcüzələri daha təsiredici olsa, onda o, Xərabatı tərk edəcək. Yox, əgər öz cəhdləri daha yaxşı olsa, onda o, şərab içməyə başlayacaq. Xətib və tamaşaçılar razılaşırlar. O, Gəncə şəhərinə axan çayın sahilində Allahı çağıraraq və dua edərək dayanır. Sonra canamazı yerə sərir və dualarına davam edir. O biri tərəfdən Əmir Əhməd atasının köhnə əmmaməsini havaya atır, üzərinə uçur və dua edir (f.104a – "Əmir Əhməd atasının əmmaməsinin üzərinə uçaraq göstərir ki, o da möcüzələr yarada bilər" [4, 179]. Hamı bunu görüb məəttəl qalır. Xətib çox təsirlənir və etiraf edir ki, oğlunun Xərabatda içki içməsinə baxmayaraq, o, möcüzələr yarada bilər. O, ürəyində dindar gəncdir və əgər hücrəsinə geri dönsə, ən dindar dərvişlər arasında seçilmişlərdən ola bilər. Bu yerdə ata və oğul barışır və Əmir Əhməd bağışlanması üçün dua edir və əvvəlki həyatına dönür. Xəbər şəhərə yayılır və Pir Osman və Məhsəti dua və tövbə etməyə gəlirlər. Xətib Məhsətinin hücrəyə gəldiyini görəndə çox təəccüblənir. Məhsəti qalan ömrünü təkkədə qalmaq istədiyini bildirir. Əgər Xətib onu Əmir Əhmədə qulluqçu kimi də qəbul etməyə razılıq versə, bu, onun üçün şərəf olar. O, əvvəlki həyatından tövbə etdiyini bildirir. Sonra Əmir Əhməd və Məhsəti evlənir və Allaha ibadətlə həyatlarına davam edirlər, uşaqları anadan olur, onları da Allah sevgisi ilə imanlı böyüdürlər. Xətib və Pir Osman öldükdən sonra Əmir Əhməd və daha sonra Məhsəti rəhmətə gedir. Onlar hamısı bir-birinin yanında dəfn olunur. Dastan çox yüksək ibrətamiz qeydlə bitir. Oxucuya həyatını boş-boşuna keçirməməyi və Allahın yaratdığı heç nəyi incitməməyi məsləhət edir.

Bu əlyazmada iki səhifəlik təsvir var ki, f.22b-22a "Gəncə şahı əhliləşmiş heyvanları yoxlayır" adlanır. Burada qızıl zəncirlə bağlanmış şir, bəbir və vaşaq təsvir olunub [4, 180]. Bu səhnə Mahmud ibn Məhəmməd ibn Məlikşah ilə əlaqələndirilir. "Rahat-əs-sudur"da qeyd edildiyinə görə, şah qızılquş, ov iti və göyərçinləri həddindən çox sevirmiş. Onun heyvanxanasında bütün heyvanlarda qızıl boyunluq olarmış. Dastanda qeyd olunmasa da, burada biz tarixi ənənənin qalıqlarını görürük.

Aşağıdakı təsvir Britaniya muzeyinin saytından götürülmüşdür. Or 8755 saylı əlyazmadakı miniatürləri Meredit Ouens belə təqdim edir.

1. ff.2b-3a. Mahsati drinking with the King of Ganjeh while musicians entertain them – "Musiqiçilər əhatəsində Məhsəti ilə Gəncə şahının içki içməsi".
2. ff. 21b-22a. The King of Ganjeh (i. e. probably Mahmud ibn Muhammad ibn Malikshah who reigned 1117-31) inspecting his tame lion, leopard and lynx (damaged) – "Gəncə şahının (1117-1131-ci illərdə hakimiyyətdə olan Səlcuq Mahmud ibn Məhəmməd ibn Məlikşah olduğu güman edilir) əhliləşmiş şir, bəbir və vaşağı yoxlaması.

3. f.29b. Mahsati, daughter of the Mufti of Balkh, who emigrated to Ganjeh and became famous for her musical talent, seen by Amir Ahmad for the first time – "Sonradan Gəncəyə köçən və musiqi istedadı ilə məşhurlaşan, Bəlx şəhərindən olan fəqihin qızı Məhsətini ilk dəfə Əmir Əhmədin görməsi".
4. f.39b. The King of Ganjeh, enraged by jealousy, attacking Mahsati and Amir Ahmad with a whip – "Gəncə şahının qısqanclıqdan Məhsəti və Əmir Əhmədi qamçı ilə şallaqlaması".
5. f.43b. The Preacher "(khatib)" of Ganjeh and his disciples visiting Amir Ahmad in prison – "Gəncə xətibinin və tələbələrin həbsxanada Əmir Əhmədə baş çəkməsi".
6. f.62b. Amir Ahmad entering the preacher's cell in a drunken state and scandalising the ascetics – "Əmir Əhmədin içkili vəziyyətdə hücrəyə daxil olması və zahidlərlə sözləşməsi".
7. f.70a. Amir Ahmad riding on the preacher's mule which took him to the tavern (retouched) – "Əmir Əhmədin xətibin qatırı ilə Xərabata gəlməsi.
8. f.75b. Pir Usman under the influence of drink carried on the shoulders of his companions to the preacher – "Pir Osman içkinin təsirindən evə yoldaşlarının çiyinlərində gedir".
9. f.87a. Mahsati entertaining the poets of Khurasan – "Məhsəti xorasanlı şairləri əyləndirərkən".
10. f.90b. Mahsati finds Amir Ahmad grieving in a ruined building – "Məhsətinin Əmir Əhmədi xarabalıqlar arasında tapması".
11. f.95b. Amir Ahmad and Mahsati accosted in the bazaar by a dissolute man – "Əmir Əhməd və Məhsətiyə bazarda ədəbsiz bir adamın sataşması".
12. f.104a. Amir Ahmad flying on his father's turban to prove himself as capable of performing miracles as the preacher who is standing in mid-stream on his prayer mat – "Xətib canamazın üzərində dayanarkən Əmir Əhməd atasının əmmaməsinin üzərinə uçaraq göstərir ki, o da möcüzələr yarada bilər".

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT:

1. R.Hüseynov. Söztək gözəl Məhsəti, Bakı, 2013
2. Encyclopaedia Iranica. Canada i. Iranian Studies, Online Article
3. J.T.P. de Bruijn. Nachgelassene Schriften herausgegeben von Gudrun Schubert. Band 2 Die schone Mahsati. Der Volksroman uber Mahsati und Amir Ahmad. Fritz Meier, edited by Gudrun Schubert and Renate Wursch, Taylor and Francis Ltd, İranian Studies, vol 39, No 4, (Dec 2006) pp. 615-618
4. Owens Meredith G.M. A rare illustrated persian manuscript, Forschungen Zur Kunst Asiens: In Memorium Kurt Erdmann" 9 september 1901-30 September 1964, Prof. Dr. Oktay Aslanapa, Prof Dr. Rudolf Naumann, Istanbul: Baha Matbaası, 1969, pp. 172-181
5. Owens Meredith G.M. Persian illustrated manuscripts, London, Trustees of the British Museum, 1973

Ilaha MAMMADOVA

MEREDITH OWENS'S RESEARCH ON THE MANUSCRIPT ABOUT THE MAHSATI GANJAVI'S LIFE

SUMMARY

The article deals with the detailed information on the manuscript of the novel "Mahsati and Amir Ahmad" preserved in the British Museum. The information on Mahsati Ganjavi's life was taken from the novel "Mahsati and Amir Ahmad". There are 4 copies of the same novel, 2 of them are preserved in the Institute of Manuscripts of Azerbaijan, one of them at Istanbul University and the other is kept in the British Museum. In 1969, British researcher Meredith Ouens published his article about description of 18 miniatures associated with the romance . This copy was bequeathed to the British Museum by Darea Baroness Zouche in 1917. Before, the manuscript seems to have been in Turkey. the manuscript Or. 8755 includes prose text and 475 rubaiyat. The manuscript Or. 8755 consists of 111 folios and was transcribed in a Nastaliq hand in 867/1462-3 but the copyist's name does not appear.

Илаха МАМЕДОВА

ИССЛЕДОВАНИЕ РУКОПИСИ О ЖИЗНИ МЕХСЕТИ ГЯНДЖЕВИ МЕРЕДИТОМ ОУЕНСОМ

РЕЗЮМЕ

В статье было подробно проинформировано об экземпляре романа «Мехсети и Амир Ахмед» который хранится в Британском музее. Информация о жизни Мехсети Гянджеви была взята из романа «Мехсети и Амир Ахмед». Роман Мехсети и Амир Ахмед датируется 15-ым веком. Существуют 4 копий одного и того же романа, 2 из них хранятся в Институте Рукописей Азербайджана, одна в Стамбульском университете, а другая в Британском музее. В 1969 году британский исследователь Мередит Оуенс опубликовал свою статью об описании 18 миниатюр. Известно, что этот роман был передан в наследство Британскому музею баронессой Дареа Зухе в 1917 году. До етого, рукопись, хранилась в Турции. Рукопись Or. 8755 включает в себя текст прозы и 475 Рубаи. Рукопись Or. 8755 состоит из 111 фолио и была переписана почерком Насталик в 867 / 1462-3, но имя переписчика не указано.

KLASSİK İRS: TARİXİ VƏ NƏZƏRİ PROBLEMLƏRİ

Rafael Hüseynov. **Allah və insan sevgisi Baba Tahirin ədəbi və fəlsəfi irsində** **5**
Natəvan Bağırova. **Seyfəddövlə sarayında ədəbi mühit** **40**
Cəmilə Dəmirova. **Səalik şairlərin yaradıcılığında azadfikirlilik motivləri** **49**
Nərmin Əliyeva. **Hafizəqədərki klassik ədəbiyyatın Şəhriyar yaradıcılığına təsiri** **61**
Şəhla Hacıyeva. **Klassik ərəb ədəbiyyatında qəzəl, antiqəzəl və müzəkkər qəzəl** **70**
Heybət Heybətov. **İbn Mənzurun həyatı, ədəbi şəxsiyyəti və müəllifi olduğu əsərləri** **78**
Dilbər Hüseynova. **Əməvilər dövründə ərəb poeziyasının inkişaf istiqamətləri** **88**
Təranə Verdiyeva. **Nizami Gəncəvi yaradıcılığında Gəncə** **94**
İlahə Məmmədova. **Meredit Ouensin Məhsəti Gəncəvinin həyatından bəhs edən əlyazma haqqında araşdırması** **104**
Aytən Nəsibova. **Səfəvilərin qulam siyasəti və bu məsələnin müasir Qərb ədəbiyyatında əksindən nümunələr** **112**

YENİ VƏ MÜASİR DÖVRDƏ ƏDƏBİ-MƏDƏNİ PROSES

Ziyafət Hüseynova. **Hüseyn Cavid və Əhməd Cavadın qəzəllərinin oxşar xüsusiyyətləri** **125**
Ləman Muxtarova. **XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatı və mətbuatında milli istiqlal uğrunda mübarizə mövzusu və parlament həyatı** **130**
Qabil Əliyev. **Böyük Vətən müharibəsi illərində "Kommunist" qəzetində poeziya** 137
Natavan Mustafayeva. **Ənvər Məmmədxanlı əsərlərinin dili və üslubu** **154**
Mahir Həmidov. **Mixail Nuaymə yaradıcılığında tənasüx etiqadının bədii təcəssümü** 160
Təbəssüm Muxtarova. **Çingiz Abdullayevin "Payız madriqalı" və Anarın "Beşmərtəbəli evin altıncı mərtəbəsi" əsərlərində gender problemi** **171**
Dürdanə Səmədova. **Ədəbiyyatda fantastika janrı: məsələnin qoyuluşuna dair** **179**